# XOCALI SOYQIRIMI: Ermәni vәhşiliyinin әyani tәzahürü

**Azәrbaycan xalqı zaman-zaman ermәnilәrin etnik tәmizlәmә, soyqırımı siyasәtinә mәruz qalmış, tarixi torpaqlarından qovulmuş, qaçqın vә mәcburi köçkün vәziyyәtinә düşmüşdür.**

1988-ci ildә ermәnilәrin әsassız torpaq iddiasının yenidәn baş qaldırmasının nәticәsi olaraq Ermәnistan-Azәrbaycan Dağlıq Qarabağ münaqişәsi yarandı. Torpaqlarımızın 20 faizi 30 il әrzindә işğal altında qaldı, bir milyondan artıq soydaşımız qaçqın vә mәcburi köçkün vәziyyәtinә düşdü. Ermәnilәrin "dәnizdәn-dәnizә böyük Ermәnistan" yaratmaq kimi sәrsәm ideyalarını gerçәklәşdirmәk istәklәri yüzlәrlә kәndin, şәhәrin dağılması, on minlәrlә günahsız insanın ölümü, yüz minlәrlә azәrbaycanlının öz tarixi torpaqlarından didәrgin düşmәsi ilә nәticәlәnsә dә, dünyanın bu günәdәk baş verәnlәrә biganә yanaşması, daha dәqiq desәk, ikili siyasәt yeridәrәk әdalәt prinsipini arxa plana keçirmәklә ermәnilәrә dәstәk funksiyalarından әl çәkmәk barәdә düşünmәmәlәri narazılıq doğuran әsas mәqamlardandır.

Dövlәt başçısı İlham Әliyev çıxışlarında ermәnilәrin zaman-zaman azәrbaycanlılara vә türklәrә qarşı soyqırımı vә deportasiya siyasәti hәyata keçirdiklәrini önә çәkir, dünya dövlәtlәrinin bu hadisәlәrә göz yummalarına narazılığını ifadә edәrәk, onların XX әsrin әn dәhşәtli faciәsi olan Xocalı hadisәsini nә üçün soyqırımı kimi tanımamalarının sәbәbini açıqlamalarının gәrәkliyini bәyan edir: "Ermәnilәr hәmişә türklәrә, azәrbaycanlılara qarşı soyqırımı siyasәti aparmışlar. Keçmiş tarixdә dә belә olub, yaxın tarixdә dә belә olubdur vә Xocalı soyqırımı bunun bariz nümunәsidir. Günahsız insanları, uşaqları, yaşlı qadınları qәtlә yetirmәk soyqırımı deyil, bәs nәdir? Ancaq әfsuslar olsun ki, dünya birliyi bunu ya görmür, ya da görmәk istәmir, ermәnilәrin, ermәni lobbisinin vә dünya ermәnilәrinin uydurma faktları әsasında qәrar qәbul edirlәr."

Ölkә Prezidenti bu yalan tәbliğata qarşı öz siyasәtimizi, hәqiqәtlәrimizi, әn әsası gücümüzü ortaya qoymağın vacibliyini bәyan edib. Әlbәttә ki, hәqiqәti çatdırmaq, tәbliğ etmәk, bütün dünyaya yaymaq harada yaşamasından asılı olmayaraq hәr bir azәrbaycanlının vәzifәsi olmalıdır. Ölkәmiz 30 il әrzindә müharibә şәraitindә yaşayıb. Ötәn dövr әrzindә ermәni vәhşiliyini, Ermәnistanın işğalçılıq siyasәtini tәsdiqlәyәn yüzlәrlә fakt aşkarlanaraq beynәlxalq ictimaiyyәtin diqqәtinә çatdırılıb. XX әsrin әn dәhşәtli faciәsi olan, bu il fevralın 26-da 30-cu ildönümü qeyd edilәcәk Xocalı soyqırımı cinayәtkar ermәni siyasәtinin nәticәsidir. Azәrbaycanlılara qarşı ermәni şovinist dairәlәrinin XIX-XX әsrlәrdә mәrhәlә-mәrhәlә hәyata keçirdiklәri etnik tәmizlәmә siyasәtinin tәrkib hissәsi olan Xocalı soyqırımı haqqında hәqiqәtlәr dünya ictimaiyyәtinә, xarici ölkәlәrin parlamentarilәrinә çatdırılmalı, Azәrbaycan xalqının vә ümumәn insanlığın әleyhinә yönәldilmiş bu son dәrәcә ağır hәrbi cinayәt beynәlxalq miqyasda öz hüquqi-siyasi qiymәtini almalıdır.





Bu gün qarşımızda duran әsas mәqsәd faciәnin soyqırımı olduğunu dünya ictimaiyyәtinә qәbul etdirmәkdir. Artıq әksәr dövlәtlәrin parlamentlәri, ABŞ-ın bir sıra ştatları, bәzi beynәlxalq tәşkilatlar Xocalı faciәsini soyqırımı kimi qәbul edәn qәtnamәlәr qәbul edliblәr. Bu tanınmada 2008-ci ildәn Heydәr Әliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Tәşkilatının (İKT) Gәnclәr Forumunun mәdәniyyәtlәrarası dialoq üzrә baş әlaqәlәndiricisi Leyla xanım Әliyevanın tәşәbbüsü ilә hәyata keçirilәn "Xocalıya әdalәt!" beynәlxalq tәbliğat-tәşviqat kampaniyasının rolunu da xüsusi qeyd etmәliyik. Tariximizin öyrәnilmәsi, tarixi faktların araşdırılaraq ölkә vә dünya ictimaiyyәtinә çatdırılması tarixçilәrimizin qarşısında mühüm vәzifә kimi qoyulur. Yalnız faktların dili ilә yazılan xeyli sayda kitablar çap olunub. Bu gün onların müxtәlif dillәrә tәrcümә olunaraq yayılması istiqamәtindә mühüm işlәr görülür.

Qeyd etdiyimiz kimi, Xocalı hәqiqәtlәrinin dünya ictimaiyyәtinә çatdırılmasında Heydәr Әliyev Fondunun da xidmәtlәri böyükdür. Bu Fond tәrәfindәn hazırlanan vәsaitlәr - kitablar, albomlar, video-disklәr dünyanın müxtәlif ölkәlәrindә Xocalı soyqırımı ilә әlaqәdar keçirilәn tәdbirlәrdә tәbliğat vasitәsi kimi istifadә edilir. İKT-yә üzv olan dövlәtlәr Leyla xanım Әliyevanın tәşәbbüsünü dәstәklәyәrәk 26 fevral - Xocalı soyqırımı gününün humanitar fәlakәt qurbanlarının xatirәsini anma günü kimi qeyd olunması barәdә qәrar qәbul ediblәr. Bu isә faciәnin soyqırımı kimi tanıdılmasına yönәldilmiş addımların sәmәrәli olduğunu sübut edir.

**Cavid Әkbәrov,**
***"İki sahil"***